Xalq qəzeti.- 2022.- 20 mart.

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 96**

**Bakı şəhəri, 17 mart 2022-ci il**

***“Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri”nin təsdiq edilməsi haqqında***

“Ümumi təhsil haqqında” Azərbaycan Respublikasının 2019-cu il 29 mart tarixli 1532-VQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2019-cu il 27 may tarixli 711 nömrəli Fərmanının 1.1.6-cı yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** “Dövlət ümumi təhsil müəssisəsi təhsilalanlarının geyim formalarının təsvirləri” təsdiq edilsin (əlavə olunur).

**2.** Bu Qərar 2022/2023-cü tədris ilindən tətbiq edilir.

**3.** Hazırda istifadədə olan geyim formaları 2022/2023-cü tədris ilinin sonunadək tətbiq edilə bilər.

***Əli ƏSƏDOV***
***Azərbaycan Respublikasının***
***Baş naziri***